| | |
|---|---|
| **"RAZILAŞDIRILMIŞDIR"** | **"TƏSDİQ EDİLMİŞDİR"** |
| **Azərbaycan Respublikasının Maliyyə Bazarlarına Nəzarət Palatası** | **"Xalq Həyat" Sığorta Şirkəti Açıq Səhmdar Cəmiyyəti** |
| ________ | ________ |
| **İdarə Heyətinin Sədri v.i.e.** | **İdarə Heyətinin Sədri** |
| **İbrahim Alışov** | **Roman Vəliyev** |
| **"15" mart 2019-cu il** | **"31" yanvar 2019-cu il** |

# Həyat sığortası qaydaları

**Bakı – 2019**

## Ümumi anlayışlar

Həyat sığortası qaydaları (bundan sonra – Qaydalar) "Xalq Həyat" Sığorta Şirkəti Açıq Səhmdar Cəmiyyətinin həyata keçirdiyi ölüm, əmək qabiliyyətinin itirilməsi hallarından, sığorta olunanın xəstəxanada qalması ilə nəticələnən sağlamlığının itirilməsi halından, sığorta olunanın cərrahi əməliyyat ilə nəticələnən sağlamlığının itirilməsi halından, bədbəxt hadisə nəticəsində peşəkar idmançıların həyatının ölüm halından və/və ya əmək qabiliyyətinin itirilməsi hallarından könüllü sığorta növləri üzrə qayda və şərtləri müəyyən edir.

Əgər Qaydaların məzmununda başqa cür nəzərdə tutulmamışdırsa, bu Qaydalarda istifadə olunan termin və ifadələr aşağıdakı mənaları daşıyır:

***Sığortalı*** – sığorta haqqı ödəyən, sığorta obyektinin sığorta etdirilməsində sığorta marağı olan sığorta müqaviləsinin tərəfi;

***Sığortaçı*** – "Sığorta fəaliyyəti haqqında" Azərbaycan Respublikasının qanununa əsasən sığorta fəaliyyətini həyata keçirmək üçün müvafiq lisenziyaya malik olan, sığorta müqaviləsində nəzərdə tutulan sığorta hadisəsi baş verdiyi halda qanunvericiliklə və ya müqavilə ilə müəyyən olunmuş qaydada sığorta ödənişini vermək öhdəliyi daşıyan sığorta müqaviləsinin tərəfi olan yerli hüquqi şəxs "Xalq Həyat Sığorta" ASC;

***Sığorta olunan*** – sığorta müqaviləsi əsasında əmlak mənafeləri sığortalanan şəxs. Peşəkar idmançıların həyatının ölüm halından və/və ya əmək qabiliyyətinin itirilməsi halından sığortası üzrə Sığorta olunan qismində yalnız peşəkar idmançı və yaxud idman tədbirlərində iştirakçı qismində çıxış edən fiziki şəxs çıxış edə bilər.

***Faydalanan şəxs*** – sığorta müqaviləsinə uyğun olaraq sığorta ödənişi verilməli olan şəxs;

***Aktuari*** – qanunvericiliyə uyğun olaraq iqtisadi-riyazi hesablamalar aparmaqla sığorta haqlarının hesablanmasının əsaslarını müəyyən edən, həmçinin sığorta ehtiyatlarını hesablayan mütəxəssis;

***Sığorta müqaviləsi*** – sığortalının müvafiq sığorta haqqı ödəməsi müqabilində sığorta obyektinin məruz qala biləcəyi risklərlə bağlı itkilərin, dəyən zərərin əvəzinin və ya razılaşdırılan pul məbləğinin müəyyən bir hadisənin baş verməsi əsasında ödənilməsinin Sığortaçı tərəfindən öhdəlik kimi götürülməsi şərtlərinin təsbit edildiyi razılaşma;

***Sığorta şəhadətnaməsi*** – sığorta müqaviləsinin bağlanması faktını təsdiq edən, Sığortaçı tərəfindən sığortalıya və (və ya) sığorta olunana verilən sənəd;

***Sığorta predmeti*** – sığorta müqaviləsi üzrə sığortalanan əmlak mənafelərinin aid olduğu fiziki şəxs;

***Sığorta riski*** – Sığorta obyekti ilə bağlı itkilərin və ya zərərlərin yaranmasına səbəb olan hadisənin baş verməsi və ya halın yaranması ehtimalı, həmçinin bu ehtimala qarşı Sığortaçının üzərinə götürdüyü öhdəlik;

***Sığorta hadisəsi*** – sığorta müqaviləsinə görə sığorta ödənişinin sığortalıya, sığorta olunana və ya digər faydalanan şəxslərə ödənilməsi üçün əsas olan, sığorta müqaviləsinin qüvvədə olduğu müddət ərzində baş verən hadisə və ya yaranan hal;

***Sığorta məbləği*** – sığorta müqaviləsi ilə müəyyənləşdirilmiş məbləğlə ifadə olunan sığortalanmış risklər üzrə Sığortaçının öhdəliyinin son həddi;

***Sığorta haqqı*** – risklərin qəbul edilməsi və ya bölüşdürülməsi müqabilində sığorta müqaviləsi ilə nəzərdə tutulan qaydada sığortalının Sığortaçıya ödəməli olduğu pul məbləği;

***Sığorta ödənişi*** – sığorta hadisəsi baş verdikdə, sığorta müqaviləsinə uyğun olaraq sığortaçı tərəfindən ödənilən maliyyə kompensasiyası;

***Bədbəxt hadisə*** – kənar və qısa müddətli fiziki təsirlə əlaqədar olan və sığorta olunanın sağlamlığına zərər vuran – bədən üzvlərinin, toxumalarının zədələnməsi ilə sağlamlığının qəflətən və kəskin pozulması halı ilə müşayiət olunan qəfil, gözlənilməz və təsadüfi hadisə;

***Sığorta tarifi*** – sığorta haqqının hesablanması üçün sığorta məbləğinə tətbiq edilən faizlə ifadə olunan dərəcə;

***Gözləmə müddəti*** – Sığortaçının baş vermiş hadisələrə görə məsuliyyət daşımadığı müddət;

***Öncədən mövcud olan vəziyyət/xəstəlik*** – sığorta müqaviləsi bağlandığı anda artıq diaqnozu qoyulmuş yaxud əlamətləri ilə özünü bildirən, sığortalı/sığorta olunanın əvvəlcədən xəbərdar olduğu və ya xəbərdar olmalı olduğu səhhətin pisləşməsi, zədə, travma, patologiya, xroniki və ya kəskin xəstəlik, psixi və ya nevroloji pozğunluq və digər vəziyyətlər və ya xəstəliklər;

***Əlillik*** – sığortalının/Sığorta olunan şəxslərin müxtəlif maneələrlə qarşılıqlı təsir zamanı digərləri ilə bərabər səviyyədə cəmiyyət həyatında tam və səmərəli iştiraka mane olan sabit fiziki, psixi və əqli və ya hissiyyat pozuntularının olması; Əlillik tibbi-sosial ekspert komissiyası tərəfindən müəyyən edilir;

***Əlil*** – anadangəlmə, xəstəlikdən və ya xəsarətdən doğan əqli və ya fiziki qüsurlar nəticəsində həyat fəaliyyəti məhdudlaşan, sosial yardıma və müdafiəyə ehtiyacı olan şəxs;

***Peşəkar idman*** — idman-tamaşa tədbirlərinin (yarışların) təşkil olunmasına və keçirilməsinə yönəldilmiş idmanın elə tərkib hissəsidir ki, burada idmanı özünə peşə (əmək) fəaliyyəti seçən idmançılar həmin tədbirlərdə (yarışlarda) iştirak etmək və onlara hazırlaşmaq üçün qanunvericiliyə uyğun olaraq əmək haqqı (pul mükafatı) alırlar;

***Peşəkar idmançı*** — seçdiyi peşəkar idman növü və ya növləri ilə mütəmadi olaraq məşğul olan və idman yarışlarında iştirak edən fiziki şəxs;

***Rəsmi bədən tərbiyəsi və idman tədbirləri*** — bədən tərbiyəsi-sağlamlıq və idman tədbirlərinin təqvim planlarına daxil edilmiş rayon, şəhər, regional, respublika və beynəlxalq miqyaslı tədbirlər və yarışlar;

***Elektron sənəd*** – informasiya sistemində istifadə üçün elektron formada təqdim edilən və elektron imza ilə təsdiq olunmuş sənəd;

***Elektron imza*** – digər verilənlərə əlavə edilən və ya onlarla məntiqi əlaqəli olan, imza sahibini identikləşdirməyə imkan verən verilənlər.

## *1. Sığorta sinfi*

1.1. Bu Qaydalara əsasən təqdim olunan sığorta təminatı şəxsi sığortaya aid olan aşağıdakı sığorta siniflərinə aid edilir:

1.1.1. sığortalı və ya sığorta olunan öldükdə sığorta ödənişinin həyata keçirilməsini nəzərdə tutan həyatın ölüm halından sığortası;

1.1.2. əmək qabiliyyətinin itirilməsi hallarından sığorta.

## *2. Sığorta obyekti*

2.1. Bu Qaydalara görə sığorta obyekti sığortalının, yaxud sığorta olunanın həyatı ilə əlaqədar əmlak mənafeləridir.

## *3. Sığorta predmeti*

3.1. Bu qaydalara əsasən sığorta müqaviləsi üzrə sığortalanan əmlak mənafelərinin aid olduğu fiziki şəxs sığortanın predmeti hesab olunur.

3.2. Sığorta müqaviləsinə əsasən həm sığortalı özü, həm də müqavilədə göstərilən başqa şəxs (Sığorta olunan) sığortalana bilər.

## *4. Sığorta haqqı və sığorta məbləği*

4.1. Sığorta haqqının miqdarı sığorta müqaviləsində razılaşdırılır.

4.2. Sığorta müqaviləsində sığorta haqqının birdəfəlik və ya hissə-hissə ödənilməsi razılaşdırıla bilər.

4.3. Sığorta haqqı və ya onun hissəsi vaxtında ödənilmədikdə Sığortaçı onun ödənilməsi üçün bu Qaydaların 4.4-cü bəndinin tələbini nəzərə alaraq yazılı surətdə 15 günədək müddət müəyyən edə bilər.

4.4. Hər bir halda sığorta haqqı və ya onun razılaşdırılmış ilk hissəsi sığorta müqaviləsi bağlandığı gündən 1 aydan gec olmayaraq ödənilməlidir.

4.5. Elektron sənəd formasında olan sığorta müqaviləsi üzrə sığorta haqqının ödənilməsi sığortalının bu Qaydalar və sığorta müqaviləsinin şərtləri ilə tanış olmasını, həmin Qaydalar və şərtlərlə razılığını, həmçinin sığorta müqaviləsinin bağlanması faktını təsdiqləyir.

4.6. Sığorta məbləği sığorta müqaviləsi ilə müəyyənləşdirilir.

4.7. Sığorta müqaviləsində nəzərdə tutulan hallarda, sığorta ödənişi verildikdən sonra sığorta məbləği ödənilmiş məbləğ həcmində azalır. Sığorta məbləğinin azaldılması sığorta hadisəsi baş verdiyi tarixdən tətbiq olunur.

4.8. Tərəflərin razılığı ilə, sığortalı əlavə sığorta haqqı müqabilində ilkin sığorta məbləğini bərpa edə bilər.

## *5. Sığorta riskləri*

5.1. Bu Qaydalara əsasən bağlanmış sığorta müqaviləsi üzrə Sığortaçı sığortalıya, Qaydaların istisnalar bəndində nəzərdə tutulmuş hallar istisna olmaqla aşağıdakı risklərdən sığorta təminatı verir:

5.1.1. sığorta təminatının qüvvədə olduğu müddət ərzində, Sığorta olunanın istənilən səbəbdən ölümü;

5.1.2. əmək qabiliyyətinin itirilməsi hallarından sığorta (1saylı Əlavə ilə tənzimlənir);

5.1.3. sığorta olunanın xəstəxanada qalması ilə nəticələnən həyatını təhlükə altına qoyan sağlamlığının itirilməsi halından sığorta (2 saylı Əlavə ilə tənzimlənir);
5.1.4. sığorta olunanın cərrahi əməliyyat ilə nəticələnən həyatını təhlükə altına qoyan sağlamlığının itirilməsi halından sığorta (3 saylı Əlavə ilə tənzimlənir);
5.1.5. peşəkar idmançıların həyatın ölüm halından və/və ya əmək qabiliyyətinin itirilməsi halından sığortası (4 saylı Əlavə ilə tənzimlənir).

## 6. *İstisnalar*

6.1. Əgər sığorta müqaviləsində başqa cür nəzərdə tutulmayıbsa, bu Qaydalara əsasən bağlanmış sığorta müqavilələrində təminat verilmiş hadisələr aşağıdakılar nəticəsində baş vermişdirsə, sığorta hadisəsi hesab edilmir:
6.1.1. sığorta olunanın sığorta müqaviləsinin qüvvədə olduğu ilk 2 il ərzində intihar etməsi (sığorta olunanın üçüncü şəxslərin hüquqazidd hərəkətləri ilə intihara məcbur edilməsi halları bu müddəadan istisna edilir);
6.1.2. sığorta olunanın hərbi əməliyyatlarda, vətəndaş qarşıdurmalarında, terror aktlarında, hərbi çevrilişlərdə, kütləvi iğtişaşlarda, hakimiyyətin zorla ələ keçirilməsində iştirak etməsi, həmçinin sığorta olunanın hərbi xidmət keçməsi, hərbi toplanışlarda, təlimlərdə, rəsmi elan edilmiş yaxud edilməmiş müharibədə iştirak etməsi və s. bu kimi hallar;
6.1.3. sığorta olunanın ionlaşdırılmış radiasiyaya yaxud radioaktiv şüalanmaya, zəhərlənməyə, elan edilmiş epidemiyalara məruz qalması;
6.1.4. sığorta olunanın alkoqol sərxoşluğu vəziyyətində olması və ya narkotik və toksik maddələri qəbul etməsi;
6.1.5. sığorta olunanın anlaqsız vəziyyətdə olması, yəni xroniki psixi xəstəlik, psixi fəaliyyətin müvəqqəti pozulması, kəmağıllıq və ya sair psixi xəstəlik nəticəsində öz əməlinin (hərəkət və ya hərəkətsizliyinin) faktiki xarakterini dərk etməməsi və ya onu idarə edə bilməməsi;
6.1.6. sığorta olunanın sertifikatlaşdırılmış aviaekipaj tərəfindən və xüsusi qaydada aparılan aviauçuşda sərnişin qismində iştirak etməsi istisna olmaqla, hər hansı avia uçuşlarda iştirak etməsi, yaxud Sığorta olunanın özünün idarə etdiyi uçuş aparatının qəzaya uğraması;
6.1.7. sığorta olunanın nəqliyyat vasitəsini idarə etmək hüququ olmadan nəqliyyat vasitəsini idarə etməsi;
6.1.8. sığorta olunanın təhlükəli iş və ya təhlükəli idman növləri (avto-moto idman, paraşütlə tullanma, əlbəyaxa döyüş, alpinizm, dağ və su turizmi, sualtı üzgüçülük, dalğıclıq, atçılıq və s.) ilə məşğul olması;
6.1.9. insan həyatını xilas etmək məqsədi ilə edildiyi hallar istisna olmaqla, Sığorta olunanın bilərəkdən özünü təhlükə altına atması, qəsdən özünə xəsarət yetirməsi, öz səhhətinə ziyan vurması;
6.1.10. sığorta olunanın tibbi məsləhətə riayət etməməsi və bilərəkdən tibbi yardım üçün müraciət etməməsi;
6.1.11. sığorta olunanın təbabətin müvafiq sahəsində həkimlik fəaliyyəti ilə məşğul olmaq hüququ olmayan şəxs tərəfindən yazılmış tibbi müayinələrdən keçməsi, müalicə edilməsi və ya belə şəxslər tərəfindən təyin edilmiş dərmanların qəbulu;
6.1.12. hauptvaxt, müvəqqəti saxlama yerləri, istintaq təcridxanaları, cəzaçəkmə müəssisələri və ya həbsxanalarda ölüm;
6.1.13.müvafiq sahə üzrə ixtisaslaşmış həkimin təyinatı olmadan və ya həkimin təyinatı olsa belə, qəbuletmə qaydalarının pozulması ilə Sığorta olunanın psixotrop maddələri və dərmanları qəbul etməsi;
6.1.14. qazanılmış immunçatışmazlığı sindromu (QİÇS), immunçatışmazlığı virusu (İÇV), yaxud digər oxşar xəstəliklər və belə xəstəliklər ilə əlaqədar meydana gələn bütün vəziyyətlər;

6.1.15. Müvafiq sahə üzrə ixtisaslaşmış həkim nəzarəti olmadan doğuş və doğuşun ağırlaşması halları, həkim təyinatı və nəzarəti olmadan hamiləliyin süni surətdə pozulması və ya digər cərrahi müdaxilələr.

6.2. Bu Qaydalarda nəzərdə tutulan istisnalar və məhdudiyyətlər sığorta müqaviləsində razılaşdırmaqla sığorta təminatına daxil edilə bilər.

## 7. *Sığorta müqaviləsi*

7.1. Bu Qaydalar əsasında bağlanılan həyat sığortası müqaviləsinə görə Sığortaçı müqavilə ilə razılaşdırılmış və sığortalının ödədiyi sığorta haqqı müqabilində sığortalının özünün və ya müqavilədə sığorta olunan qismində göstərilən başqa şəxsin müqavilədə göstərilmiş sığorta riskləri üzrə sığorta hadisəsinin baş verdiyi təqdirdə müqavilə ilə şərtləşdirilmiş sığorta məbləğini birdəfəlik sığorta ödənişi və ya vaxtaşırı ödənişlər şəklində faydalanan şəxsə ödəməyi öhdəsinə götürür.

7.2. Sığorta müqaviləsi, sığortalı fiziki şəxs olduğu halda onun sığortalanma haqqında ərizəsi, hüquqi şəxs olduğu halda isə Sığortaçı tərəfindən müəyyən edilən sığorta olunanların siyahısı və sorğu forması əsasında bağlanılır. Tərəflərin qarşılıqlı razlığı ilə sığorta müqaviləsi şifahi sorğu əsasında bağlana bilər.

7.3. Sığorta müqaviləsi yazılı olaraq aşağıdakı hər hansı bir formada bağlanılır:

7.3.1. tərəflərin bu Qaydalar əsasında sığorta müqaviləsi adlanan sənədi tərtib edərək qarşılıqlı imzalaması yolu ilə;

7.3.2. sığortalının bu Qaydalarla tanış olmasını və onun şərtləri ilə razılaşmasını yazılı qaydada təsdiq etməsi şərti ilə Sığortaçı tərəfindən sığortalıya Sığorta şəhadətnaməsinin verilməsi yolu ilə.

7.4. Bu Qaydaların 7.3.2-ci bəndində nəzərdə tutulmuş halda sığorta şəhadətnaməsində sığorta predmetinin sığortalandığı risklər konkret olaraq sadalanmalıdır.

7.5. Bu Qaydaların 7.3-cü bəndində nəzərdə tutulmuş sığorta müqaviləsinin formaları elektron imza vasitəsilə, həmçinin tərəflərin imza və/və ya möhürünün skan və ya digər vasitə ilə surətinin çıxarılması yolu ilə də bağlana bilər.

7.6. Sığorta müqaviləsi bağlanarkən Sığortaçı sığortalıya hamı tərəfindən asanlıqla başa düşülən üslubda tərtib edilmiş və aşağıdakıları əks etdirən yaddaş vərəqi verməlidir:

7.6.1. Sığorta hadisəsi hesab edilə bilən halın baş verdiyi zaman necə hərəkət etməyin lazım olduğunu;

7.6.2. Sığortaçının sığorta ödənişindən imtina etməsinin qanuni əsaslarını.

7.7. Sığorta müqaviləsi bağlanarkən Sığortaçı sığorta olunanın səhhətinin mövcud vəziyyətini qiymətləndirmək məqsədilə onun sığorta müqaviləsinin şərtlərindən asılı olaraq öz hesabına və ya sığortalının (sığorta olunanın) hesabına müayinə olunmasını tələb edə bilər.

7.8. Sığortaçı 10 gün müddətində sığortalıya sığorta müqaviləsinin bağlanmasını təsdiq edən sənəd – sığorta şəhadətnaməsi verməlidir. Bu tələb sığorta müqaviləsinin, bu Qaydaların 7.3.1-ci bəndində nəzərdə tutulmuş qaydada bağlandığı hala da şamil edilir.

7.9. Müqavilədə bir neçə şəxsin sığorta haqqının ödənilməsində payçı kimi iştirakı nəzərdə tutula bilər. Bu halda həmin şəxslər birgə sığortalı kimi çıxış edirlər.

7.10. Sığorta müqaviləsinə onun qüvvədə olduğu müddətdə qanunvericiliyə və bu Qaydaların şərtlərinə uyğun əlavə və dəyişikliklər edilə bilər. Belə əlavə və dəyişikliklər sığorta müqaviləsinin tərkib hissəsini təşkil edir.

7.11. Fiziki şəxs sığortalının öldüyü və ya hüquqi şəxs sığortalının ləğv edildiyi halda, Sığorta olunan mövcud qanunvericilikdə nəzərdə tutulmuş qaydada müqavilə tərəfi qismində Sığortalını əvəz edə bilər və Sığortalının bu Qaydalarda nəzərdə tutulmuş hüquq və vəzifələrini yerinə yetirir.

## 8. *Sığorta müddəti və sığorta ərazisi*

8.1. Sığorta müddəti sığorta müqaviləsi ilə müəyyən olunur.

8.2. Sığorta müqaviləsində başqa cür nəzərdə tutulmamışdırsa, sığorta haqqının ilk hissəsinin və ya tam ödənilməsi halında, sığorta təminatının müddəti sığorta müqaviləsinin bağlandığı gün saat iyirmi dörddən başlanır və sığorta müqaviləsinə əsasən həmin müqavilənin qüvvədə olduğu sonuncu gün saat iyirmi dörddə başa çatır.

8.3. Sığorta müqaviləsində başqa hal nəzərdə tutulmamışdırsa, sığorta müqaviləsinin qüvvədə olduğu əraziyə məhdudiyyət tətbiq edilmir.

## 9. *Sığorta müqaviləsinin tərəflərinin hüquq və vəzifələri*

### *9.1. Sığortalı və sığorta olunanın hüquqları:*

9.1.1. sığorta müqaviləsi bağlanarkən Sığortaçının müstəqil auditor tərəfindən təsdiqlənmiş illik balansı və fəaliyyətinin illik yekunlarına dair maliyyə nəticələri ilə tanış olmaq;

9.1.2. sığorta şəhadətnaməsi itdikdə və ya məhv olduqda Sığortaçıdan onun dublikatını almaq;

9.1.3. sığorta müqaviləsinin şərtləri və bu Qaydalar barədə Sığortaçıdan izahatlar almaq;

9.1.4. sığorta müqaviləsinin şərtlərinin dəyişdirilməsi təklifi ilə çıxış etmək;

9.1.5. Azərbaycan Respublikasının Mülki Məcəlləsində və bu Qaydalarda nəzərdə tutulmuş digər hüquqlardan istifadə etmək.

### *9.2. Sığortalı və sığorta olunanın vəzifələri:*

9.2.1. sığortalanma haqqında ərizədə qoyulan suallara doğru cavablar vermək;

9.2.2.sığorta haqqını sığorta müqaviləsində nəzərdə tutulmuş müddətdə və miqdarda ödəmək;

9.2.3. sığorta müqaviləsi bağlanarkən sığortalının özünə məlum olan, habelə Sığortaçının yazılı surətdə tələb etdiyi və müqavilədən imtina etmək, yaxud onu məzmunu dəyişdirilmiş şəkildə bağlamaq qərarına təsir göstərə bilən bütün hallar barədə Sığortaçıya məlumat vermək;

9.2.4. bu Qaydaların 9.2.3-cü bəndinə uyğun olaraq bildirilmiş hallarla bağlı sığorta müqaviləsi bağlandıqdan sonra meydana çıxan bütün dəyişikliklər barədə sığortaçıya və ya sığortaçının adından çıxış edən sığorta vasitəçisinə məlumat vermək;

9.2.5. Sığortaçıya faydalanan şəxs barədə düzgün məlumat vermək;

9.2.6. sığorta hadisəsi baş vedikdə bu barədə xəbər tutduqdan dərhal sonra və ya mümkün olan ən qısa müddət ərzində Sığortaçıya və ya onun nümayəndəsinə, eyni zamanda, həmin hadisə barədə məlumatlandırılmalı olan səlahiyyətli dövlət orqanlarına hər hansı vasitə ilə xəbər vermək. Bu vəzifə faydalanan şəxs tərəfindən də yerinə yetirilə bilər;

9.2.7. Sığortaçıya və ya onun nümayəndəsinə sığorta hadisəsi ilə əlaqəsi olan məlumatı sərbəst əldə etmək imkanı yaratmaq;

9.2.8. Azərbaycan Respublikasının Mülki Məcəlləsində nəzərdə tutulan və bu Qaydalardan irəli gələn digər vəzifələri yerinə yetirmək.

### *9.3. Sığortaçının hüquqları:*

9.3.1. sığortalının və sığorta olunanın verdiyi məlumatların düzgünlüyünü yoxlamaq;

9.3.2. sığorta olunan şəxsin səhhətinin mövcud vəziyyətini qiymətləndirmək məqsədi ilə onun sığorta müqaviləsinin şərtlərindən asılı olaraq öz hesabına və ya sığortalının hesabına müayinə olunmasını tələb etmək;

9.3.3. sığortalı sığorta müqaviləsinin bağlanması zamanı qəsdən özünün məlumat vermək vəzifəsini icra etmədikdə müqavilənin bağlandığı vaxtdan 5 il müddət keçənədək Sığortaçı müqavilə üzrə vəzifələrinin icrasından imtina etmək və sığorta müqaviləsinə vaxtından əvvəl xitam verilməsi tələbi ilə çıxış etmək;

9.3.4. sığorta olunanın ölməsinə səbəb olan hadisənin baş verməsi faktı üzrə cinayət işinin başlanması halında səlahiyyətli orqanın müvafiq qərarının qəbul olunmasına qədər sığorta ödənişinin verilməsini təxirə salmaq;

9.3.5. Sığorta müqaviləsi ilə başqa hal nəzərdə tutulmayıbsa, sığorta hadisəsi baş verdiyi andan 3(üç) il müddətində bu Qaydaların 13.3-13.4-cü bəndlərində nəzərdə tutulmuş müvafiq sənədlər Sığortaçıya təqdim edilməsə, sığorta ödənişinin verilməsindən imtina etmək;

9.3.6. Sığorta ödənişinin verilməsi zamanı sığorta ödənişi məbləğindən sığortalının ona ödəməli olduğu, vaxtı çatmış və ya gecikdirilmiş sığorta haqqı məbləğini tutmaq;

9.3.7. Azərbaycan Respublikasının Mülki Məcəlləsi ilə nəzərdə tutulmuş və bu Qaydalardan irəli gələn digər hüquqlardan istifadə etmək.

*9.4. **Sığortaçının vəzifələri:***

9.4.1. bu Qaydalar əsasında sığorta müqaviləsi bağlanarkən sığortalını bu Qaydalar ilə tanış etmək;

9.4.2. sığorta müqaviləsi bağlanarkən sığortalıya hamı tərəfindən asanlıqla başa düşülən üslubda tərtib edilmiş yaddaş vərəqini vermək;

9.4.3. sığortalıya bu Qaydalar əlavə edilmiş sığorta şəhadətnaməsi vermək;

9.4.4. sığorta hadisəsi baş verdikdə bu Qaydaların 13.3-13.4-cü bəndlərində nəzərdə tutulmuş sənədlərdən sonuncusunu aldığı tarixdən 7(yeddi) iş günündən gec olmayaraq sığorta ödənişini vermək, yaxud Sığortalıya, sığorta olunana və ya faydalanan şəxsə sığorta ödənişinin verilməsindən imtina haqqında yazılı şəkildə əsaslandırılmış bildiriş təqdim etmək;

9.4.5. sığorta hadisəsinin baş verməsi barədə Sığortaçıya məlumat vermiş sığortalı və ya sığorta olunan şəxs, həmçinin faydalanan şəxs səlahiyyətli dövlət orqanlarına həmin hadisə barədə xəbər verməmişdirsə, qeyd olunan orqanları bu hadisə barədə dərhal məlumatlandırmaq;

9.4.6. "Sığorta fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanunu ilə sığorta sirri hesab edilən məlumatların məxfiliyini təmin etmək;

9.4.7. sığorta hadisəsi hesab edilə bilən, araşdırılması və ya qeydə alınması tələb olunan hadisələr barədə səlahiyyətli dövlət orqanlarına belə hadisələrin baş verməsi faktını və (və ya) səbəbini, habelə nəticələrini təsdiq edən sənədin alınması üçün yazılı sorğu göndərmək;

9.4.8. Azərbaycan Respublikasının Mülki Məcəlləsi ilə nəzərdə tutulmuş və bu Qaydalardan irəli gələn digər vəzifələri yerinə yetirmək.

## *10. Sığorta müqaviləsinə vaxtından əvvəl xitam verilməsi*

10.1. Sığorta müqaviləsinə aşağıdakı hallarda vaxtından əvvəl xitam verilir:

10.1.1. sığorta predmeti artıq mövcud olmadıqda;

10.1.2. aşağıdakı hallar istisna olmaqla, sığortalı fiziki şəxs öldükdə və ya sığortalı hüquqi şəxsin fəaliyyəti dayandırıldıqda və ya ləğv olunduqda:

10.1.2.1. başqa şəxsin xeyrinə həyat sığortası müqaviləsi bağlamış sığortalı vəfat etdikdə, onun hüquq və vəzifələri xeyrinə sığorta müqaviləsi bağlanmış şəxsə həmin şəxsin yazılı razılığı ilə keçir;

10.1.2.2. sığortalı olan hüquqi şəxs sığorta müqaviləsinin qüvvədə olduğu dövrdə yenidən təşkil edildikdə, onun həmin müqavilə üzrə hüquq və vəzifələri hüquqi varisinə keçir.

10.1.3. sığortalı olmayan sığorta olunan vəfat etdikdə və bu halda sığortalının başqası ilə əvəz olunması təklifinə Sığortaçı etiraz etdikdə;

10.1.4. sığorta hadisəsinin baş verməsi ehtimalı olmadıqda və sığorta riskinin mövcudluğu, səbəbi sığorta hadisəsi olmayan hallara görə başa çatdıqda;

10.1.5. Sığortaçı sığortalı qarşısında öz öhdəliklərini tam olaraq yerinə yetirdikdə;

10.1.6. sığorta marağı artıq mövcud olmadıqda;

10.1.7. sığortalı sığorta haqqını sığorta müqaviləsində müəyyən edilən qaydada ödəmədikdə;

10.1.8. sığortalı və ya Sığortaçı sığorta müqaviləsinə vaxtından əvvəl xitam verilməsi tələbi ilə çıxış etdikdə.

10.2. Sığorta müqaviləsinin qüvvədə olduğu dövrdə fiziki şəxs olan sığortalı məhkəmənin qərarı ilə fəaliyyət qabiliyyəti olmayan hesab edilmişdirsə, yaxud onun fəaliyyət qabiliyyəti məhkəmənin qərarı ilə məhdudlaşdırılmışdırsa, sığortalının hüquq və vəzifələrini onun qəyyumu və ya himayəçisi həyata keçirir.

## *11. Sığorta müqaviləsinə vaxtından əvvəl xitam vermə ilə bağlı xəbərdar etmə*

11.1. Bu Qaydaların 10.1-ci bəndində göstərilən hallarda sığorta müqaviləsinə xitam verilməsi üçün əsas olan şərait yarandıqda bu Qaydaların 11.2-ci bəndi nəzərə alınmaqla müqaviləyə xitam verilməsində maraqlı olan tərəf dərhal digər tərəfi bu barədə xəbərdar etməlidir.

11.2. Sığorta müqaviləsinə bu Qaydaların 10.1.8-ci bəndinə uyğun olaraq sığortalının və ya Sığortaçının tələbi ilə vaxtından əvvəl xitam verilərkən bu barədə bir tərəf digərinə ən azı 30 gün əvvəl (sığorta müqaviləsi beş ildən çox müddətə bağlanmış olduqda 60 gün, 3 aydan az müddətə bağlanmış olduqda isə 5 iş günü əvvəl) tələbini əsaslandırdığı yazılı bildiriş göndərməlidir.

## *12. Sığorta müqaviləsinə vaxtından əvvəl xitam vermənin nəticələri*

12.1. Sığorta müqaviləsinə sığortalının tələbi ilə vaxtından əvvəl xitam verildikdə, Sığortaçı həmin müqavilə üzrə sığorta haqqının qaytarılan hissəsindən işlərin aparılması xərclərinin müqavilənin qurtarmamış müddətinə mütənasib hissəsini çıxmaqla həmin müddət üçün sığorta haqlarını ona qaytarır. Sığortalının sığorta müqaviləsinə xitam verilməsi ilə bağlı tələbi Sığortaçının sığorta müqaviləsi üzrə vəzifələrini yerinə yetirməməsi ilə bağlıdırsa, Sığortaçı sığorta haqlarını bütünlüklə Sığortalıya qaytarır.

12.2. Sığorta müqaviləsinə Sığortaçının tələbi ilə vaxtından əvvəl xitam verildikdə o, sığorta haqlarını bütünlüklə sığortalıya qaytarır; əgər bu tələb sığortalının sığorta müqaviləsi üzrə vəzifələrini yerinə yetirməməsi ilə bağlıdırsa, Sığortaçı müqavilənin qurtarmamış müddəti üçün sığorta haqlarını qaytarır. Bu halda Sığortaçı sığorta müqaviləsi üzrə sığorta haqqının qaytarılan hissəsindən işlərin aparılması xərclərinin müqavilənin qurtarmamış müddətinə mütənasib hissəsini çıxa bilər.

12.3. Sığorta müqaviləsinə vaxtından əvvəl xitam verildiyi halda, əgər xitam verilmə anınadək Sığortaçı tərəfindən sığortalıya ödənilmiş sığorta haqqına bərabər və ya ondan çox miqdarda sığorta ödənişi verilmişdirsə, sığorta haqqı sığortalıya qaytarılmır.

12.4. Sığorta müqaviləsinə vaxtından əvvəl xitam verildiyi halda, əgər xitam verilmə anınadək ödənilmiş sığorta haqqından az miqdarda sığorta ödənişi verilmişdirsə, həmin sığorta haqqı məbləği ilə sığorta ödənişi məbləği arasındakı fərq miqdarında sığorta haqqının sığortalıya qaytarılması müvafiq olaraq bu Qaydaların 12.1-ci və 12.2-ci bəndlərində nəzərdə tutulmuş qaydada həyata keçirilir.

## *13. Sığorta ödənişinin həyata keçirilməsi qaydası*

13.1. Müqavilə bağlanarkən razılaşdırılan sığorta məbləğinin ödənişi Sığortaçı tərəfindən faydalanan şəxsə yalnız sığorta haqqının müqavilə ilə müəyyən edilmiş miqdarda və qaydada ödənilmiş olması şərtilə verilir.

13.2. Əgər sığorta hadisəsi növbəti tədricən ödənilən sığorta haqqının ödənilməsi müddətinin başa çatmasından sonra baş vermiş, lakin müvafiq sığorta haqqı həmin müddətin sonuna qədər ödənilməmişdirsə, Sığortaçının sığorta ödənişinin həyata keçirilməsindən imtina etmək və müəyyən edilmiş qaydada Sığorta müqaviləsinə xitam vermək hüququ yaranır.

13.3. Sığorta ödənişi aşağıdakı sənədlər təqdim edildiyi halda həyata keçirilir:

a) sığorta hadisəsi baş verdikdə, sığortalının, sığorta olunanın və ya faydalanan şəxsin Sığortaçıya ünvanladığı sığorta tələbi;
b) sığorta hadisəsi hesab edilə bilən hadisə ilə bağlı hər hansı dövlət orqanına məlumat verilməlidirsə, həmin orqanın hadisə barədə təqdim etdiyi müvafiq sənəd;
c) sığorta şəhadətnaməsi (sığortalanma haqqında ərizəsi və əlavələri ilə);
d) sığorta olunanın şəxsiyyətini təsdiq edən sənədin surəti;
e) faydalanan şəxsin (şəxslərin) şəxsiyyətini təsdiq edən sənədin sürəti;
f) sığorta hadisəsi hesab edilə bilən, araşdırılması və ya qeydə alınması tələb olunan hadisələr barədə səlahiyyətli dövlət orqanının belə hadisələrin baş verməsi faktını və (və ya) səbəbini, habelə nəticələrini təsdiq edən sənəd, o cümlədən hadisə cinayət tərkiblidirsə bu barədə məhkəmənin qərarı və ya cinayət işinin başlanması yaxud rədd olunması barədə qərarın surəti;
g) sığorta olunan vəfat etdikdə, ölüm haqqında şəhadətnamənin notarial qaydada təsdiq edilmiş surəti;
h) faydalanan şəxs müəyyən edilməmişdirsə, vərəsəlik haqqında şəhadətnamənin notarial qaydada təsdiq edilmiş surəti.

13.4. Sığortaçı baş vermiş hadisənin səbəblərini və ya sığorta hadisəsi olması faktını müəyyən etmək üçün zəruri olan aşağıdakı sənədləri də əsaslandırılmış şəkildə tələb edə bilər:
a) sığorta olunan vəfat edibsə ölümün səbəbi haqqında tibbi arayış;
b) epikriz, xəstəlik tarixçəsindən çıxarış;
c) ambulator kartdan çıxarış;
d) əmək müqaviləsi.

13.5. Əgər faydalanan şəxs sığorta olunanın ölümü halında müqaviləyə uyğun olaraq ona ödənilməli olan sığorta təminatını almadan ölərsə, sığorta ödənişi həmin faydalanan şəxsin vərəsələrinə verilir.

13.6. Ödəniş qanunla müəyyən olunmuş qaydada təsdiq edilmiş etibarnamə əsasında sığorta olunanın (faydalanan şəxsin) nümayəndəsinə verilə bilər.

13.7. Sığorta müqaviləsi ilə başqa hal nəzərdə tutulmamışdırsa, sığorta hadisəsi baş verdikdə bu Qaydaların 13.3-13.4-cü bəndlərində nəzərdə tutulmuş müvafiq sənədlərin sonuncusu Sığortaçıya daxil olduğu tarixdən 7 iş günündən gec olmayaraq Sığortaçı sığorta ödənişini həyata keçirir və ya sığortalıya, sığorta olunana və ya faydalanan şəxsə yazılı şəkildə imtina haqqında əsaslandırılmış bildiriş təqdim edir.

13.8. Faydalanan şəxs 18 yaşına çatmamışdırsa, ona verilməli olan sığorta ödənişi onun qanuni nümayəndəsinin yazılı razılığı ilə müəyyən edilmiş bankda faydalanan şəxsin adına açılmış hesaba qoyulur.

## *14. Ödənişdən imtinanın əsasları*

14.1. Sığortaçı sığorta ödənişinin verilməsindən aşağıdakı hallarda imtina edir:

14.1.1. bu Qaydaların 9.2.7-ci bəndinin tələblərinə əməl edilməməsi nəticəsində Sığortaçının hadisənin sığorta hadisəsi olub-olmamasını müəyyənləşdirmək imkanından məhrum olması;

14.1.2. baş vermiş hadisənin qanunvericiliyə, bu Qaydalara və ya sığorta müqaviləsinə əsasən sığorta hadisəsi hesab edilməməsi;

14.1.3. sığortalının, faydalanan şəxsin, sığorta olunanın, Azərbaycan Respublikasının Mülki Məcəlləsində, Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində və Azərbaycan Respublikasının Cinayət Məcəlləsində nəzərdə tutulmuş məsuliyyəti istisna edən hallardan başqa, sığortalının, müvafiq hallarda zərərçəkənin müvafiq

hadisənin baş verməsinə yönələn qəsdən etdiyi hərəkəti və ya hərəkətsizliyi, habelə hadisə ilə birbaşa səbəb əlaqəsində olan qəsdən cinayət törətməsi;

14.1.4. müqavilə ilə hərbi risklərin sığortalanması nəzərdə tutulmadıqda, hadisənin baş verməsinin hərbi əməliyyatlar və ya hərbi xarakterli tədbirlər hesab edilən halların nəticəsi olması;

14.1.5. sığorta predmeti, həmçinin sığorta olunan şəxs və (və ya) sığorta hadisəsi barəsində sığortalının Sığortaçıya qəsdən yanlış məlumat verməsi nəticəsində Sığortaçının sığorta riskini qiymətləndirmək, həmçinin sığorta hadisəsinin səbəblərini və (və ya) dəyən zərərin həcmini müəyyənləşdirmək imkanından tam və ya qismən məhrum olması (bu zaman Sığortaçı məlumatların yanlışlığı sığorta müqaviləsi bağlanarkən Sığortaçıya məlum olduqda və ya sığortalı yanlış məlumatların verilməsində təqsirli olmadıqda, habelə tələb olunan məlumata sığortalının cavab verməməsinə baxmayaraq sığorta müqaviləsi bağlanmış olduğu halda Sığortaçı sığorta ödənişinin verilməsindən imtina üçün yanlış məlumatın verilməsi və ya tələb olunan məlumatın verilməməsi faktına əsaslana bilməz);

14.1.6. sığorta haqqının növbəti hər hansı bir hissəsinin müqavilədə nəzərdə tutulmuş ödənilməsi müddəti başa çatdıqdan 15 gün sonra, bu Qaydaların 4.3-cü bəndində nəzərdə tutulmuş halda isə Sığortaçının müəyyən etdiyi müddətin başa çatmasından 3 gün sonra sığorta hadisəsinin baş verməsi halında sığorta haqqının müvafiq hissəsinin ödənilməmiş olması;

14.1.7. müqavilə ilə başqa hal nəzərdə tutulmayıbsa, hadisənin baş verməsinin səbəbi təminata istisna hesab olunan halların nəticəsi olması;

14.1.8. Sığortaçının sığorta hadisəsinin baş verməsi səbəblərini araşdırmasına sığortalı, sığorta olunan, faydalanan şəxs tərəfindən maneçilik törədilməsi;

14.1.9. sığorta müqaviləsinin qüvvəyə mindiyi tarixdən sonra aşkar edilmiş sığortalının, sığorta olunanın sığortalanma haqqında ərizədə verilmiş suallara qəsdən həqiqətə uyğun olmayan cavabları verməsi, o şərtlə ki, sığorta müqaviləsi bağlandığı tarixdən 5 il keçməmişdir.

## *15. Tərəflərin məsuliyyəti*

15.1. Bu Qaydaların şərtlərinin yerinə yetirilməməsinə yə ya lazımı qaydada yerinə yetirilməməsinə görə tərəflər qanunvericiliklə müəyyən edilmiş qaydada məsuliyyət daşıyırlar.

## *16. Mübahisələrin həlli qaydası*

16.1. Sığorta müqaviləsinin icrasından irəli gələn mübahisələr tərəflərin qarşılıqlı razılığı ilə həll olunur.

16.2. Sığorta müqaviləsinin icrasından irəli gələn mübahisələrin həllində tərəflər arasında qarşılıqlı razılığın əldə olunması mümkün olmadıqda, mübahisələr məhkəmə qaydasında həll edilir.

16.3. Sığorta müqaviləsi üzrə hüquqlarının Sığortaçı tərəfindən pozulduğunu hesab edən sığortalı, sığorta olunan və ya faydalanan şəxs Azərbaycan Respublikasının Maliyyə Bazarlarına Nəzarət Palatasına şikayət ərizəsi ilə müraciət edə bilər.

## *17. Şərtlər*

17.1. Sığorta müqaviləsində tərəflərin razılığı ilə bu Qaydalara və qüvvədə olan qanunvericiliyə zidd olmayan, Sığortalının və ya Sığorta olunanın vəziyyətini pisləşdirməyən xüsusi şərtlər müəyyən oluna bilər.

## *18. Yekun müddəalar*

18.1. Tərəflər müqavilənin icra edilməsi və ya xitamı ilə bağlı bütün xəbərdarlıq və məlumatları sığorta müqaviləsində qeyd olunan ünvanlara və ya əlaqə vasitələrinə (poçt ünvanı, müqavilədə nəzərdə tutulmuş hallarda elektron ünvan və ya digər əlaqə vasitələri) göndərirlər. Ünvanlar və ya əlaqə vasitələri dəyişdiyi halda, bir tərəf o biri tərəfi qabaqcadan bu haqda yazılı şəkildə məlumatlandırmalıdır. Əgər bir tərəf o biri tərəfi ünvanlar və ya əlaqə vasitələrinin dəyişilməsi barədə əvvəlcədən məlumatlandırmayıbsa, köhnə ünvan və ya əlaqə vasitələrinə göndərilən xəbərdarlıq və məlumatlar çatdırılmış kimi qəbul olunur.

## *19. Sığorta tarifləri və onların iqtisadi əsaslandırılması*

19.1. Minimum sığorta haqlarının hesablanması Azərbaycan Respublikası Maliyyə Nazirliyinin Kollegiyasının 27 mart 2014-cü il tarixli Q-08 nömrəli Qərarı ilə təsdiq edilmiş "Aktuar hesablamaların aparılmasına dair Təlimat"ın 4-cü bəndinə əsasən aparılır.

19.2. Həyatın ölüm halından sığorta sinfi üzrə qrup halında sığorta olunanlar üçün müqavilə bağlanan zaman aşağıda qeyd olunmuş xərclər azalır:

Kargüzarlıq ilə əlaqədar xərclər (sığorta şəhadətnaməsi hər sığorta olunan üzrə ayrı-ayrılıqda yox, sığorta olunanların siyahısı əlavə olunmaqlda bir müqavilə bağlanılır);

Anderraytinq xərcləri (qrup halında sığorta olunanlar üçün anderraytinq tələbləri daha yumşaq olur. Belə ki, sığorta olunanların sayının artması ilə əlaqədar, bütün şəxslər üzrə deyil, qrupa daxil olan bəzi şəxslər üzrə individual qaydada anderraytinq həyata keçirilir);

İllik inzibati xərclər (nəzərə alsaq ki, inzibati xərclərə sığorta şirkətinin yerləşdiyi binanın, nəqliyyat vasitəsinin saxlanılması, bank (investisiya) xərcləri, kommunal, rabitə, əmək haqqı, lisenziya, verilənlərin emalı və s. xərclər daxildir və həmin xərclər qrup halında sığorta olunanlar üçün sığorta olunanların sayından asılı olmayaraq sabit olaraq qalır. Qrup halında sığorta olunanlar üçün bu sabit xərc qrupa daxil olan fərdlər arasında bərabər miqdarda bölüşdürülməsi bir sığorta olunan üçün ədalətli sığorta haqqının hesablanmasına səbəb olur).

Buna görə də, həyatın ölüm halından sığortası sinfi üzrə qrup halında sığorta olunanlar üçün, qrupa daxil olan hər bir sığorta olunana münasibətdə sığorta haqları hesablanarkən, aşağıda qeyd olunmuş şərtlər ödənildiyi halda, təlimatda sığorta müqaviləsi bağlanarkən çəkilən xərclər və sığorta müqaviləsi qüvvədə olduğu müddət ərzində illik çəkilən inzibati xərclər aşağıdakı kimi nəzərdə tutulur:

(α) alfa əmsalı $\frac{1}{n}$ şəklində iştirak edir (n – qrupa daxil olan sığorta olunanların sayıdır, bir şərtlə ki sığorta olunanların sayı 10-dan çox olmalıdır)

(γ) qamma əmsalı $\frac{1}{n}$ şəklində iştirak edir (n – qrupa daxil olan sığorta olunanların sayıdır, bir şərtlə ki sığorta olunanların sayı 1500-dan çox olmalıdır

Qeyd 1. Qrup halında sığorta müqaviləsinin hər bir sığorta olunan üzrə sığorta təminatının bitmə tarixi sığorta müqaviləsinin bitmə tarixi ilə eyni olmalıdır.
Qeyd 2. Sığortalı və faydalanan şəxs eyni zamanda bank, bank olmayan kredit təşkilatı, İpoteka fondu və ya digər maliyyə fondu olmamalıdır.
Qeyd 3. Əgər sığorta müqaviləsinə yeni sığorta olunanlar daxil edilərsə, bu halda və $\gamma$ əmsalı təzə daxil olan şəxslər üzrə əsas müqavilənin bağlandığı ana sığorta olunanların sayı (n) nəzərə alınmaqla hesablanacaqdır, yəni $\frac{1}{n}$ şəklində iştirak edir.

Hazırkı Əlavə şərtlər Həyat sığortası qaydalarının (bundan sonra Qaydalar) bütün ümumi şərtlərini və istisnalarını nəzərə almaqla ona əlavəni təşkil edir və ayrılıqda istifadə edilə bilməz.

## *1. Sığorta təminatı*

1.1. Hazırkı əlavə şərtlərə əsasən bağlanmış sığorta müqaviləsi üzrə Sığortaçı sığortalıya, Qaydaların istisnalar bəndində nəzərdə tutulmuş hallar qüvvədə olmaqla sığorta şəhadətnaməsində müəyyən edildiyi şəkildə əmək qabiliyyətinin itirilməsi ilə nəticələnən bədbəxt hadisə və/və ya xəstəlik risklərindən sığorta təminatı verir.

1.2. Sığorta olunan qanunvericilikdə nəzərdə tutulmuş qaydada tibbi-sosial ekspert komissiyası tərəfindən ekspert müayinəsindən keçdikdən sonra ona müvafiq qərar çıxarılması yolu ilə əlillik dərəcəsi təyin olunur.

## *2. Sığorta ödənişinin həyata keçirilməsi qaydası*

2.1. Sığorta şəhadətnaməsində başqa hal nəzərdə tutulmamışdırsa, sığorta ödənişinin həcmi əmək qabiliyyətinin itirilməsinin müddəti, dərəcəsi və təyin olunan əlilik dərəcəsindən asılı olaraq, sığorta şəhadətnaməsində müəyyən edilir:

2.1.1. I dərəcəli əlilliyin təyin edilməsi ilə nəticələnən bədbəxt hadisə və/və ya xəstəlik - 100% həcmində - birdəfəlik şəkildə;

2.1.2. II dərəcəli əlilliyin təyin edilməsi ilə nəticələnən bədbəxt hadisə və/və ya xəstəlik - sığorta şəhadətnaməsində qeyd edilmiş faiz dərəcəsi həcmində;

2.1.3. III dərəcəli əlilliyin təyin edilməsi ilə nəticələnən bədbəxt hadisə - sığorta şəhadətnaməsində qeyd edilmiş faiz dərəcəsi həcmində;

2.1.4. Əmək qabiliyyətinin müvəqqəti tam itirilməsi ilə nəticələnən bədbəxt hadisə: əmək qabiliyyətinin bədbəxt hadisə nəticəsində müvəqqəti tam itirilməsi zamanı əmək qabiliyyətinin itirilməsinin müqavilədə göstərilmiş təqvim günündən başlayaraq, müqavilədə göstərilmiş müddət ərzində əmək qabiliyyətinin tam itirilməsinin hər gününə görə müqavilə ilə müəyyən edilmiş məbləğin və yaxud bu risk üzrə sığorta məbləğinin müəyyən faizinin ödənilməsi;

2.1.5. Əmək qabiliyyətinin qismən itirilməsi ilə nəticələnən bədbəxt hadisə nəticəsində bədən xəsarətin alınması - cədvələ əsasən sığorta məbləğinin müəyyən edilmiş faizin ödənilməsi:

| **Xəsarətin adı** | **Sığorta məbləğindən %-lə ödəniş** |
|---|---|
| Aşağı çənənin və ya yuxarı çənə sümüyünün yarısının çıxarılması | 40 % |
| Bir gözün tam itirilməsi | 40 % |
| Bir qulağın tam karlığı | 30 % |

| yuxarı ətraflar | sağ | sol |
|---|---|---|
| Bir əlin və ya bir biləyin tam itirilməsi | 60 % | 50 % |
| Yuxarı ətrafın tam iflici ( sinirlərin sağalmaz zədələnməsi) | 65% | 55% |
| Qoltuqaltı sinirin tam iflici | 20 % | 15 % |
| Çiyinin ankilozu | 40 % | 30 % |
| Əlverişli mövqedə dirsəyin ankilozu (düz bucaq altinda 15 dərəcə) | 25 % | 20 % |
| Əlverişsiz mövqedə dirsəyin ankilozu | 40 % | 35 % |
| Orta sinirin tam iflici | 45 % | 35 % |
| Mil sinirinin tam iflici | 40 % | 35 % |
| Əlin mil sinirinin tam iflici | 20 % | 15 % |
| Dirsək sinirinin tam iflici | 30 % | 25 % |
| Əlverişli mövqedə biləyin ankilozu (düz və pronasiyada) | 20 % | 15 % |
| Əlverişsiz mövqedə biləyin ankilozu (bükülmə və ya dartılma və supinasiyada) | 30 % | 25 % |
| Baş barmağın tam ankilozu | 20 % | 15 % |
| Şəhadət barmağının tam amputasiyası | 15 % | 10 % |
| Şəhadət barmağının iki falanqasının tam itirilməsi | 10 % | 8 % |
| Baş və şəhadət barmaqlarının eyni zamanda amputasiyası | 35 % | 25 % |
| Baş və şəhadət barmağından başqa digər bir barmağın itirilməsi | 25 % | 20 % |
| Baş və şəhadət barmağından başqa digər iki barmağın itirilməsi | 12 % | 8 % |

| aşağı ətraflar | |
|---|---|
| Budun aşağı 1/3 hissəsindən yuxarı aşağı ətrafın tam itirilməsi | 60 % |
| Budun 1/3 hissəsindən aşağı, aşağı ətrafın tam itirilməsi | 50 % |
| Pəncənin tam itirilməsi (tibial-ayaq dırnağının ekzartikulyasiyası) | 45 % |
| Pəncənin qismən itirilməsi (topuqaltı-sümük ekzartikulyasiyası) | 40 % |
| Pəncənin qismən itirilməsi (orta ayaq dırnağının ekzartikulyasiyası) | 35 % |
| Pəncənin qismən itirilməsi (ayaq dırnağının arxası-ayaq dırnağının ekzartikulyasiyası) | 30 % |
| Aşağı ətrafların tam iflici (sağalmaz sinir zədəsi) | 60 % |
| Xarici dizaltı oturaq sinirinin tam iflici | 30 % |
| Daxili dizaltı oturaq sinirinin tam iflici | 20 % |
| İki sinirin tam iflici (xarici və daxili dizaltı oturaq sinirləri) | 40 % |
| Budun ankilozu | 40 % |
| Dizin ankilozu | 20 % |
| Fraqmentlərin əhəmiyyətli dərəcədə ayrılması və ayağın dartılması zamanı hərəkətin əhəmiyyətli dərəcədə çətinləşməsi ilə dizüstü kasalığın sümük maddəsinin itirilməsi | 40 % |

| | |
|---|---|
| Aşağı ətrafın ən azı 5 sm qısaldılması | 10 % |
| Aşağı ətrafın 3 sm-dən 5 sm-dək qısaldılması | 5 % |
| Ayağın bütün barmaqlarının amputasiyası | 25 % |
| Ayağın dörd barmağının tam itirilməsi (baş barmağı ilə birlikdə) | 20 % |

Təminat verilmiş "itirilmə" – hər hansı orqanın itirilməsi – onun tam və həmişəlik itirilməsi (amputasiya) deməkdir, görmə və yaxud danışıq qabiliyyətinin itirilməsi – tam və bərpa olunmaz görmə və yaxud danışıq qabiliyyətinin itirilməsi deməkdir.

2.1.5.1. Bədbəxt hadisə nəticəsində baş vermiş xəsarət cədvəldə qeyd olunmadıqda, xəsarətin ağırlığı və sığortalı tərəfindən təqdim edilmiş sənədlər əsasında sığorta ödənişinin həcmi Sığortaçı tərəfindən müəyyən edilir.

## 3. *Sığorta ödənişinin həyata keçirilməsi qaydası*

3.1. Sığorta ödənişinin həyata keçirilməsi üçün sığortalı, sığorta olunan və ya faydalanan şəxs Sığortaçıya aşağıdakı sənədləri təqdim etməlidir:

3.1.1. Sığorta şəhadətnaməsi;

3.1.2. Müəyyən edilmiş formada ərizə;

3.1.3. TSEK tərəfindən verilən əlilliyi təsdiq edən sənədin təsdiq edilmiş surəti;

3.1.4. Sığorta hadisəsi bədbəxt hadisə nəticəsində baş veribsə, bədbəxt hadisə faktını və onun baş vermə şəraitini təsdiq edən səlahiyyətli orqanın sənədi.

3.2. Sığortaçı baş vermiş hadisənin səbəblərini və ya sığorta hadisəsi olması faktını müəyyən etmək üçün zəruri olan digər sənədləri də əsaslandırılmış şəkildə tələb edə bilər: epikriz, xəstəlik tarixçəsindən çıxarış, ambulator kartdan çıxarış TSEK-a göndəriş.

Hazırkı Əlavə şərtlər Həyat sığortası qaydalarının (bundan sonra Qaydalar) bütün ümumi şərtlərini və istisnalarını nəzərə almaqla ona əlavəni təşkil edir və ayrılıqda istifadə edilə bilməz.

## *1. Sığorta təminatı*

1.1. Hazırkı əlavə şərtlərə əsasən bağlanmış sığorta müqaviləsi üzrə Sığortaçı sığortalıya Qaydaların istisnalar bəndində və hazırki əlavə şərtlərin xüsusi istisnalar bəndində nəzərdə tutulmuş hallar istisna olmaqla sığorta olunanın xəstəxanada qalması ilə nəticələnən bədbəxt hadisə və (və ya) xəstəlik nəticəsində sağlamlığın itirilməsi riskindən sığorta təminatı verir.

## *2. Sığorta ödənişinin həcmi və həyata keçirilməsi qaydası*

2.1. Sığorta müqaviləsində başqa hal nəzərdə tutulmayıbsa, sığorta ödənişinin həcmi sığorta olunanın sağlamlıq vəziyyətindən asılı olmayaraq, sığortalı üçün nəzərdə tutulan bir il ərzində maksimum 90 gün müddətində, gündəlik ödəniş isə sığorta olunanın netto gəlirinin 70%-dən çox olmamaq şərtilə 150 AZN-dək verilir.

2.2. Sığorta ödənişinin həyata keçirilməsi üçün aşağıdakı sənədlərin təqdim edilməsi tələb edilir:

2.2.1. sığorta müqaviləsi/şəhadətnaməsi;
2.2.2. müəyyən edilmiş formada ərizə;
2.2.3. sığorta hadisəsinin baş verməsinin səbəbi və şəraitini müəyyən etmək üçün lazım olan digər sənədlər (epikriz, xəstəlik tarixçəsindən çıxarış )

## *3. Xüsusi istisnalar*

3.1. Əgər sığorta müqaviləsində başqa hal nəzərdə tutulmayıbsa, sığortalının xəstəxanada qalması ilə nəticələnən sağlamlığının itirilməsi halı aşağıdakılar nəticəsində yaranarsa sığorta hadisəsi hesab edilmir:

3.1.1. sığorta müqaviləsi bağlandığı günə qədər 3 il ərzində mövcud olan (və ya keçirilmiş) və sığorta hadisəsinin baş verməsinə təsiri olan xəstəlik və vəziyyətlər.
3.1.2. kosmetik cərrahiyə (bədbəxt hadisə nəticəsində yaranan kosmetik qusurlar istisna olmaqla);
3.1.3. profilaktik tibbi müayinələr;
3.1.4. kontrasepsiya və sterilizasiya əməliyyatları;
3.1.5. sonsuzluqla əlaqədar müayinələr;
3.1.6. abort (birbaşa tibbi göstəriş istisna olmaqla).

3.2. Hazırkı Əlavə şərtlərin 3.1.1-ci bəndində qeyd edilmiş müddətdə sığorta hadisəsinin baş verməsinə təsiri olan bir xəstəlik və ya vəziyyət aşkar olunubsa, sığorta təminatı başlandığı gündən 24 ay ərzində bu xəstəlik və vəziyyətlə əlaqəli sığorta hadisələrinə təminat verilmir.

Hazırkı Əlavə şərtlər Həyat sığortası qaydalarının (bundan sonra Qaydalar) bütün ümumi şərtlərini və istisnalarını nəzərə almaqla ona əlavəni təşkil edir və ayrılıqda istifadə edilə bilməz.

*1. Sığorta təminatı*

1.1. Hazırkı əlavə şərtlərə əsasən bağlanmış sığorta müqaviləsi üzrə Sığortaçı sığortalıya Qaydaların istisnalar bəndində və hazırki Əlavə şərtlərin xüsusi istisnalar bəndində nəzərdə tutulmuş hallar istisna olmaqla aşağıda sadalanan cərrahi əməliyyatlar ilə nəticələnən sağlamlığın itirilməsi riskindən sığorta təminatı verir:

| № | Cərrahi əməliyyatların növü | Sığorta məbləğindən %-lə ödəniş |
|---|---|---|
| **1.** | **Beyin toxuması** | |
| 1.1. | Baş beyin toxumasının böyük hissəsinin çıxarılması | 100% |
| 1.2. | Baş beyin toxumasının zədələnmiş hissəsinin çıxarılması | 75% |
| 1.3. | Baş beyin toxumasının stereotaksik amputasiyası | 75% |
| 1.4. | Baş beyin toxumasının zədələnmiş hissəsinin açıq biopsiyası | 50% |
| 1.5. | Baş beyin toxumasında digər açıq əməliyyatlar | 50% |
| **2.** | **Beyin mədəcikləri və subaraxnoidal boşluq** | |
| 2.1. | Beyin mədəcikindən keçidin yaradılması | 50% |
| **3.** | **Beyin sinirləri** | |
| 3.1. | Beyin sinirin beyindaxili yarılması | 50% |
| **4.** | **Onurğa beyini və onurğa sütününun digər toxumaları** | |
| 4.1. | Onurğa beyinin hissəvi çıxarılması | 75% |
| 4.2. | Onurğa beynində digər açıq əməliyyatlar | 75% |
| 4.3. | Onurğa beynin digər zədələnmələri | 75% |
| 4.4. | Onurğa beynində digər əməliyyatlar | 50% |
| 4.5. | Onurğa beynin sinir kötüklərində əməliyyatlar | 50% |
| **5.** | **Sinir sisteminin digər şöbələri** | |
| 5.1. | Boyun simpatik sinirinin çıxarılması | 75% |
| 5.2. | Simpatik sinirin kimyəvi destruksiyası | 50% |
| 5.3. | Simpatik sinirin krioterapiyası | 50% |
| 5.4. | Simpatik sinirin yüksəktezlikli nəzarətlə termal destruksiyası | 50% |
| **6.** | **Endokrin sistemi və süd vəziləri** | |
| **6.1.** | **Hipofiz və epifiz vəzi** | |
| 6.1.1. | Hipofiz vəzinin çıxarılması | 75% |
| 6.1.2. | Hipofiz vəzinin destruksiyası | 75% |
| 6.1.3. | Hipofiz vəzində digər əməliyyatlar | 75% |
| 6.1.4. | Epifiz vəzində əməliyyatlar | 75% |
| **6.2.** | **Qalxanvari və paratireoid vəziləri** | |

| | | |
|---|---|---|
| 6.2.1. | Qalxanabənzər vəzinin toxumasında əməliyyatlar | 50% |
| 6.2.2. | Paratireoid vəzidə digər əməliyyatlar | 50% |
| **6.3.** | **Digər endokrin vəzilər** | |
| 6.3.1. | Çəngələbənzər vəzinin çıxarılması | 50% |
| 6.3.2. | Çəngələbənzər vəzidə digər əməliyyatlar | 50% |
| 6.3.3. | Böyrəküstü vəzinin çıxarılması | 50% |
| 6.3.4. | Aberrant böyrəküstü vəzdə digər əməliyyatlar | 75% |
| 6.3.5. | Böyrəküstü vəzdə digər əməliyyatlar | 50% |
| **6.4.** | **Süd vəziləri** | |
| 6.4.1. | Süd vəzinin tam çıxarılması | 50% |
| 6.4.2. | Süd vəzisinin bərpası | 50% |
| 6.4.3. | Süd vəzisində digər plastik əməliyyatlar | 50% |
| 7. | **Göz** | |
| **7.1.** | **Hədəqə** | |
| 7.1.1. | Hədəqənin plastik bərpası | 50% |
| 7.1.2. | Hədəqənin yarılması | 50% |
| 7.1.3. | Hədəqədə digər əməliyyatlar | 50% |
| **7.2.** | **Göz yaşı apparatı** | |
| 7.2.1. | Göz yaşı vəzisi və burun boşluğu arasında kanalın yaradılması | 50% |
| **7.3.** | **Göz əzələləri** | |
| 7.3.1. | Göz əzələlərində kombinasiya edilmiş əməliyyatlar | 50% |
| **7.4.** | **Gözün buynuz qişası və konyuktiva** | |
| 7.4.1. | Gözün buynuz qişasında plastik əməliyyatlar | 50% |
| **7.5.** | **Gözün qüzehi qişası və sklera** | |
| 7.5.1. | Gözün torlu qişasının fiksasiyası üçün skleranın batırma əməliyyatı | 50% |
| **7.6.** | **Gözün ön kamerası və göz bülluru** | |
| 7.6.1. | Göz büllurun protezləşdirməsi | 50% |
| **7.7.** | **Gözün tor qişası və gözün digər hissələri** | |
| 7.7.1. | Şüşəvari cisim üzərində əməliyyatlar | 50% |
| 8. | **Qulaq** | |
| **8.1.** | **Məməşəkilli çıxıntı və orta qulaq** | |
| 8.1.1. | Orta qulaq sümükləri zəncirinin bərpası | 50% |
| 8.1.2. | Orta qulaq sümüklərində digər əməliyyatlar | 50% |
| **8.2.** | **Daxili qulaq və yevstax borusu** | |
| 8.2.1. | Vestibulyar aparat ilə əlaqədar əməliyyatlar | 50% |
| 8.2.2. | Qulaq üzərində gigər əməliyyatlar | 50% |
| 9. | **Tənəffüs sistemi** | |
| **9.1.** | **Udlaq** | |
| 9.1.1. | Udlaqın bərpası | 50% |
| **9.2.** | **Qırtlaq** | |
| 9.2.1. | Qırtlaqın çıxarılması | 50% |
| 9.2.2. | Qırtlaqın rekonstruksiya əməliyyatı | 50% |
| **9.3.** | **Nəfəs yolu və bronxlar** | |
| 9.3.1. | Nəfəs yolunun hissəvi çıxarılması | 50% |
| 9.3.2. | Nəfəs yolu üzərində plastik əməliyyatlar | 50% |
| 9.3.3. | Nəfəs yolu üzərində digər açıq əməliyyatlar | 50% |
| 9.3.4. | Nəfəs yolunun bölünməsi hissəsində açıq əməliyyat | 50% |
| **9.4.** | **Ağ ciyər və divararası** | |
| 9.4.1. | Ağ ciyərin transplantasiyası | 50% |
| 9.4.2. | Divararasında açıq əməliyyatlar | 50% |

| | | |
|---|---|---|
| **10.** | **Ağız boşluğu** | |
| **10.1.** | **Tüpürcək vəzləri** | |
| 10.1.1. | Tüpürcək kanalının transpozisiyası | 50% |
| **11.** | **Həzm sisteminin üst hissəsi** | |
| **11.1.** | **Qida borusu, qida borusu yırtığı daxil olmaqla** | |
| 11.1.1. | Qida borusu və mədənin çıxarılması | 75% |
| 11.1.2. | Qida borusunun tam çıxarılması | 100% |
| 11.1.3. | Qida borusunun hissəvi çıxarılması | 50% |
| 11.1.4. | Qida borusunun patoloji dəyişilmiş hissəsinin ekstirpasiyası | 50% |
| 11.1.5. | Qida borusunun yarılması | 50% |
| 11.1.6. | Qida borusunun venaların varikoz genişlənməsi ilə əlaqədar açıq əməliyyat | 50% |
| 11.1.7. | Qida borusunda digər açıq əməliyyatlar | 50% |
| 11.1.8. | Fibroendiskopiküsullaqidaborusununzədələnməsinin ekstirpasiyası | 50% |
| **11.2.** | **Mədə və həzm sisteminin yuxarı hissəsinin endoskopiyası** | |
| 11.2.1. | Mədənin tam çıxarılması | 50% |
| 11.2.2. | Mədənin hissəvi çıxarılması | 50% |
| 11.2.3. | Mədədə patoloji dəyişikliyin açıq üsulla ekstirpasiyası | 50% |
| 11.2.4. | Mədədə plastik əməliyyatlar | 50% |
| 11.2.5. | Mədə ilə onikibarmaq bağırsağın birləşdirilməsi | 50% |
| 11.2.6. | Mədə ilə nazik bağırsağın birləşdirilməsi | 50% |
| **11.3.** | **Onikibarmaq bağırsağı** | |
| 11.3.1. | Onikibarmaq bağırsağın çıxarılması | 50% |
| 11.3.2. | Onikibağırsaqda patoloji dəyişikliyin açıq üsulla ekstirpasiyası | 50% |
| 11.3.3. | Onikibarmaq bağırsağım xora xəstəliyi əməliyyatı | 50% |
| 11.3.4. | Onikibarmaq bağırsaqda digər əməliyyatlar | 50% |
| **11.4.** | **Qalça bağırsaq** | |
| 11.4.1. | Qalça bağırsağım çıxarılması | 50% |
| 11.4.2. | Qalça bağırsağın patoloji dəyişikliyin açıq yolla çıxarılması | 50% |
| **12.** | **Həzm sisteminin aşağı hissəsi** | |
| **12.1.** | **Yoğun bağırsaq** | |
| 12.1.1. | Yoğun və düz bağırsağın tam çıxarılması | 75% |
| 12.1.2. | Yoğun bağırsağın tam çıxarılması | 50% |
| 12.1.3. | Çənbər bağırsağın sağ yarısının geniş amputasiyası | 50% |
| 12.1.4. | Çənbər bağırsağın sağ yarısının digər üsullarla çıxarılması | 50% |
| 12.1.5. | Çənbər bağırsağın köndələn hissəsinin çıxarılması | 50% |
| 12.1.6. | Çənbər bağırsağın sol yarısının çıxarılması | 50% |
| 12.1.7. | S-vari bağırsağın çıxarılması | 50% |
| 12.1.8. | Yoğun bağırsaqda anastomozun qoyulması | 50% |
| 12.1.9. | Yoğun bağırsaqda açıq endoskopik əməliyyatlar | 50% |
| **12.2.** | **Düz bağırsaq** | |
| 12.2.1 | Düz bağırsağın çıxarılması | 75% |
| 12.2.2. | Düz bağırsağın patoloji dəyişikliyin çıxarılması | 50% |
| **13.** | **Digər qarın boşluğunun orqanları** | |
| **13.1.** | **Qara ciyər** | |
| 13.1.1. | Qara ciyərin transplantasiyası | 100% |
| 13.1.2. | Qara ciyərin hissəvi çıxarılması | 75% |
| 13.1.3. | Qara ciyərin patoloji törəməsinin çıxarılması | 75% |
| 13.1.4. | Qara ciyərin reparasiyası | 75% |

| | | |
|---|---|---|
| 13.1.5. | Qara ciyərin yarılması | 50% |
| 13.1.6. | Qara ciyər üzərində digər əməliyyatlar | 50% |
| **13.2.** | **Öd yolları** | |
| 13.2.1. | Oddi sfinkterin plastik rekonstruksiyası onikibarmaq bağırsağına çıxışla | 50% |
| **13.3.** | **Mədəaltı vəz** | |
| 13.3.1. | Mədəaltı vəzin transplantasiyası | 100% |
| 13.3.2. | Mədəaltı vəzin tam çıxarılması | 100% |
| 13.3.3. | Mədəaltı vəzin başın çıxarılması | 75% |
| 13.3.4. | Mədəaltı vəzin digər hissəsinin hissəvi çıxarılması | 75% |
| 13.3.5. | Mədəaltı vəzin patoloji törəməsinin çıxarılması | 75% |
| **14.** | **Ürək** | |
| **14.1.** | **Ürək arakəsməsi və ürəyin kameraları** | |
| 14.1.1. | Ürəyin və ağ ciyərin transplantasiyası | 100% |
| 14.1.2. | Ürəyin transplantasiyası | 100% |
| 14.1.3. | Tetrada Fallo korreksiyası | 75% |
| 14.1.4. | Böyük damarların transpozisiyası məqsədi ilə ürək qulaqcığın inversiya əməliyyatı | 75% |
| 14.1.5. | Anomal ağ ciyər venasının korreksiyası | 75% |
| 14.1.6. | Qulaqcıq-mədəcik arakəsmə defektinin bərpası əməliyyatı | 50% |
| 14.1.7. | Qulaqcıqarası arakəsmə defektin bərpası əməliyyatı | 50% |
| 14.1.8. | Mədəcikarası arakəsmə defektin bərpa əməliyyatı | 50% |
| 14.1.9. | Ürək arakəsməsinin digər defektlərinin bərpası | 50% |
| 14.1.10. | Ürək arakəsməsində digər açıq əməliyyatlar | 50% |
| 14.1.11. | Ürək arakəsməsində qapalı əməliyyatlar | 50% |
| 14.1.12. | Ürək qapaqında kanalın yaradılması | 50% |
| 14.1.13. | Ürəkdə digər kanalın yaradılması | 50% |
| 14.1.14. | Ürək qulaqcığının bərpası | 50% |
| 14.1.15. | Ürək qulaqcığın divarında digər əməliyyatlar | 50% |
| 14.1.16. | Ürək divarında digər əməliyyatlar | 50% |
| **14.2.** | **Ürək qapaqları və birləşdirici strukturlar** | |
| 14.2.1. | Mitral qapağın plastik bərpası | 75% |
| 14.2.2. | Aorta qapağın plastik bərpası | 75% |
| 14.2.3. | Üçtaylı qapağın plastik bərpası | 75% |
| 14.2.4. | Ağ ciyər kötüyü qapağın plastik bərpası | 75% |
| 14.2.5. | Ürəyin qeyri-müəyyən qapağının plastik bərpası | 75% |
| 14.2.6. | Ürək qapağının açıq yarılması | 50% |
| 14.2.7. | Ürək qapağında digər açıq əməliyyatlar | 75% |
| 14.2.8. | Ürək qapağında translüminal terapevtik əməliyyatlar | 50% |
| 14.2.9 | Ürək qapağı ilə birləşən strukturun obstruksiyasının çıxarılması | 50% |
| 14.2.10. | Ürək qapağı ilə birləşən strukturda digər əməliyyatlar | 50% |
| **14.3.** | **Yuxu arteriyası** | |
| 14.3.1. | Yuxu arteriyasının aşağı ətrafın dərialtı arteriyası ilə transplantasiyası | 75% |
| 14.3.2. | Yuxu arteriyasında digər autotransplantasiya əməliyyatı | 75% |
| 14.3.3. | Yuxu atreriyasının autotransplantasiya əməliyyatı | 75% |
| 14.3.4. | Yuxu arteriyasının protez ilə dəyişdirilməsi | 75% |
| 14.3.5. | Yuxu arteriyasının digər üsullarla dəyişdirilməsi | 75% |
| 14.3.6. | Yuxu arteriyası ilə doş arteriyasının birləşdirilməsi | 75% |
| 14.3.7. | Yuxu arteriyasının digər şuntlama əməliyyatı | 75% |

| | | |
|---|---|---|
| 14.3.8. | Yuxu arteriyasının bərpası | 50% |
| 14.3.9. | Yuxu arteriyasında digər açıq əməliyyatlar | 75% |
| **14.4.** | **Ürəyin digər hissələri və perikard** | |
| 14.4.1. | Ürəyin aparıcı sistemində açıq əməliyyatlar | 75% |
| 14.4.2. | Ürək üzərində digər açıq əməliyyatlar | 75% |
| 14.4.3. | Ürək üzərində digər əməliyyatlar | 50% |
| **15.** | **Arteriyalar və venalar** | |
| **15.1.** | **Böyük damarlar və ağ ciyər arteriyası** | |
| 15.1.1. | Boyük damarların kombinasiya olunmuş qüsurlarının açıq əməliyyatı | 50% |
| 15.1.2. | Aotra ilə ağ ciyər arteriyası arasında boru protezi vasitəsilə şuntlama əməliyyatı | 50% |
| 15.1.3. | Aorta ilə ağ ciyər arteriyasının digər birləşmə əməliyyatı | 50% |
| 15.1.4. | Ağ ciyər arteriyasının bərpa əməliyyatı | 50% |
| **15.2.** | **Aorta** | |
| 15.2.1. | Aortanın ekstraanatomik şuntlama əməliyyatı | 75% |
| 15.2.2. | Aortanın anevrizmalı hissəsinin təcili dəyiçdirilməsi | 100% |
| 15.2.3. | Aortanın anevrizmalı hissəsinin digər üsulla dəyişdirilməsi | 75% |
| 15.2.4. | Aorta seqmentinin digər təcili şuntlama əməliyyatı | 100% |
| 15.2.5. | Aorta seqmentinin digər şuntlama əmliyyatı | 75% |
| 15.2.6. | Aortanın plastik bərpası | 75% |
| 15.2.7. | Aortada digər açıq əməliyatlar | 75% |
| 15.2.8. | Aortada translünimal əməliyatlar | 50% |
| **15.3.** | **Yuxu, baş beyin və körpücükaltı arteriyalar** | |
| 15.3.1. | Yuxu arteriyasının bərpa əməliyyatı | 75% |
| 15.3.2. | Yuxu arteriyasında digər açıq əməliyyatlar | 50% |
| 15.3.3. | Baş beyin arteriyasının anevrizmalı hissəsində əməliyyatlar | 50% |
| 15.3.4. | Baş beyin arteriyası üzərində digər əməliyyatlar | 50% |
| 15.3.5. | Körpücükaltı arteriyanın bərpa əməliyyatı | 50% |
| 15.3.6. | Aortanın qarın şaxələri | |
| 15.3.7. | Böyrək arteriyasının bərpası | 50% |
| 15.3.8. | Böyrək arteriyasında digər açıq əməliyyatlar | 50% |
| 15.3.9. | Qarın aortasının digər visseral şaxəsinin bərpası | 50% |
| 15.3.10. | Qarın aortasının digər visseral şaxəsi üzərində digər açıq əməliyyatlar | 50% |
| **15.4.** | **Qalça və bud arteriyaları** | |
| 15.4.1. | Qalça arteriyasının anevrizmasının təcili dəyişdirilməsi | 75% |
| 15.4.2. | Qalça arteriyasının anevrizmasının digər dəyişdirilməsi | 50% |
| 15.4.3. | Qalça arteriyasının təcili şuntlama əməliyyatı | 50% |
| 15.4.4. | Qalça arteriyasının rekonstruksiya əməliyyatı | 50% |
| 15.4.5. | Bud arteriyasının anevrizmasının təcili dəyişdirilməsi | 50% |
| 15.4.6. | Bud arteriyasının anevrizmasının digər dəyişdirilməsi | 50% |
| 15.4.7. | Bud arteriyasında digər təcili şuntlama əməliyyatı | 50% |
| 15.4.8. | Bud arteriyasında digər şuntlama əməliyyatı | 50% |
| 15.4.9. | Bud arteriyasının rekonstruksiya əməliyyatı | 50% |
| **16.** | **İfrazat sistemi** | |
| **16.1.** | **Böyrəklər** | |
| 16.1.1. | Böyrəyin transplantasiyası | 100% |
| **16.2.** | **Sidik kisəsinin çıxacağı və prostat vəzisi** | |
| 16.2.1. | Qadın sidik kisəsinin saxlaması məqsədi ilə kombinə olunmuş | 75% |

| | | |
|---|---|---|
| | qarın və uşaqlıq yolu əməliyyatları | |
| 16.2.2. | Qadın sidik kisəsinin saxlaması məqsədi ilə qarın əməliyyatları | 50% |
| 16.2.3. | Qadın sidik kisəsinin saxlaması məqsədi ilə uşaqlıq yolu əməliyyatları | 50% |
| **17.** | **Dəri** | |
| **17.1.** | **Dəri və dərialtı toxuma** | |
| 17.1.1. | Baş və boyun dərisinin plastik çıxarılması | 50% |
| 17.1.2. | Mikroskopik nəzarətlə dərinin patoloji dəyişikliyinin çıxarılması | 50% |
| 17.1.3. | Tük ilə örtülmüş dəri loskutu əməliyyatı | 50% |
| 17.1.4. | Dəri loskutu əməliyyatı | 50% |
| **18.** | **Yumşaq toxumalar** | |
| **18.1.** | **Döş qəfəsi divarının plevrası və diafraqma** | |
| 18.1.1. | Döş qəfəsi divarının hissəvi yarılması | 50% |
| 18.1.2. | Döş qəfəsi divarının rekonstrukiyası | 75% |
| 18.1.3. | Döş qəfəsi divarında digər əməliyyatlar | 50% |
| 18.1.4. | Plevranın açıq yarılması | 50% |
| 18.1.5. | Plevra üzərində digər açıq əməliyyatlar | 50% |
| 18.1.6. | Diafraqma yırtıqı əməliyyatı | 50% |
| 18.1.7. | Diafraqmanın üzərində digər bərpa əməliyyatları | 50% |
| 18.1.8. | Diafraqma üzərində digər əməliyyatlar | 50% |
| **18.2.** | **Periton** | |
| 18.2.1. | Nazik bağırsağın mezenterium üzərində əməliyyatlar | 50% |
| 18.2.2. | Yoğun bağırsağın mezenterium üzərində əməliyyatlar | 50% |
| 18.2.3. | Arxa peritonda əməliyyatlar | 75% |
| 18.2.4. | Peritonda digər əməliyyatlar | 50% |
| **18.3.** | **Fassiya düyünü və kisəsi** | |
| 18.3.1. | Fassiyanın transplantasiyası | 50% |
| **18.4.** | **Vətər** | |
| 18.4.1. | Vətər transplantasiyası | 50% |
| **18.5.** | **Əzələ** | |
| 18.5.1. | Əzələ transplantasiyası | 75% |
| **19.** | **Kəllə və onurğa sütününun sümük və oynaqları** | |
| **19.1.** | **Beyin və üz kəllənin sümükləri** | |
| 19.1.1. | Kəllənin plastik bərpası | 75% |
| 19.1.2. | Kəllə üzərində digər əməliyyatlar | 50% |
| 19.1.3. | Yuxarı çənə sınığının bərpası | 50% |
| 19.1.4. | Digər üz sümüklərinin sınığının bərpası | 50% |
| 19.1.5. | Üz sümüyünun fiksasiyası | 50% |
| **19.2.** | **Alt çənə və gicgah-çənə oynağı** | |
| 19.2.1. | Alt çənənin rezeksiyası | 50% |
| 19.2.2. | Alt çənənin fiksasiyası | 50% |
| 19.2.3. | Gicgah-çənə oynağının rekonstruksiya əməliyyatı | 75% |
| 19.2.4. | Gicgah-çənə oynağı üzərində digər əməliyyatlar | 50% |
| **19.3.** | **Onurğa sütunu sümük və oynaqları** | |
| 19.3.1. | Onurğa sütununun boyun hissəsində ilkin dekompressiya əməliyyatları | 75% |
| 19.3.2. | Onurğa sütununun döş hissəsində dekompressiya əməliyyatları | 75% |
| 19.3.3. | Onurğa sütununun bel hissəsində ilkin dekompressiya əməliyyatları | 75% |
| 19.3.4. | Onurğa sütununun hər hansı bir hissəsində dekompressiya | 75% |

| | | |
|---|---|---|
| | əməliyyatları | |
| 19.3.5. | Boyun hissəsinin fəqərəarası diskin ilkin yarılması | 50% |
| 19.3.6. | Boyun hissəsinin fəqərəarası diskin diaqnostik yarılması | 50% |
| 19.3.7. | Döş hissəsinin fəqərəarası diskin ilkin yarılması | 50% |
| 19.3.8. | Döş hissəsinin fəqərəarası diskin diaqnostik yarılması | 50% |
| 19.3.9. | Bel hissəsinin fəqərəarası diskin ilkin yarılması | 50% |
| 19.3.10. | Bel hissəsinin fəqərəarası diskin diaqnostik yarılması | 50% |
| 19.3.11. | Onurğa sütununun hər hansı bir hissəsinin fəqərəarası diskin yarılması | 50% |
| 19.3.12. | Onurğa sütununun boyun hissəsi oynaqların ilkin birləşdirilməsi | 75% |
| 19.3.13. | Onurğa sütununun digər hissəsi oynaqların birləşdirilməsi | 75% |
| 19.3.14. | Onurğa sütununun oynaqların diaqnostik birləşdirilməsi | 50% |
| 19.3.15. | Onurğa sütununun zədələnmiş hissəsinin çıxarılması | 75% |
| 19.3.16. | Onurğa sütunu sınığının dekompressiyası | 75% |
| 19.3.17. | Onurğa sütunu sınığının bərpası | 75% |
| 19.3.18. | Fəqərə oynağının onurğa oynaq səthinin denevrasiyası | 75% |
| 19.3.19. | Fəqərəarası disk üzərində digər əməliyyatlar | 50% |
| 19.3.20. | Onurğa sütunu üzərində digər əməliyyatlar | 75% |
| **20.** | **Digər sümük və oynaqlar** | |
| **20.1.** | **Əl və ayaqın kompleks bərpası** | |
| 20.1.1. | Biləyin və baş barmağın kompleks rekonstruksiyası | 100% |
| 20.1.2. | Biləyin digər kompleks rekonstruksiyası | 100% |
| 20.1.3. | Ayaq darağı arxası və ayaq darağı sümüklərinin kompleks rekonstruksiyası (ön hissə) | 100% |
| 20.1.4. | Ayaq darağı arxası və ayaq darağı sümüklərinin kompleks rekonstruksiyası (arxa hissə) | 100% |
| **20.2.** | **Sümüklər** | |
| 20.2.1. | Sümüyün oynaqətrafı hissəsinin bucaqlı əyriliyinin yarılması | 50% |
| 20.2.2. | Sümüyün digər oynaqətrafı hissəsinın yarılması | 50% |
| 20.2.3. | Sümüyün diafizal bölünməsi | 50% |
| 20.2.4. | Ayaq sümüyünün bölünmə əməliyyatı | 50% |
| 20.2.5. | Sümüyün digər bölünməsi | 50% |
| 20.2.6. | Sümüyün digər rekonstruksiyası | 75% |
| 20.2.7. | Sümük iliyinin transplantasiyası | 100% |
| **20.3.** | **Oynaq** | |
| 20.3.1. | Sement istifadə olunmaqla bud-çanaq oynağının tam protezlə dəyişdirilməsi | 75% |
| 20.3.2. | Sement istifadə olunmadan bud-çanaq oynağının tam protezlə dəyişdirilməsi | 75% |
| 20.3.3. | Bud-çanaq oynağının digər tam protezlə dəyişdirilməsi | 75% |
| 20.3.4. | Sement istifadə olunmaqla diz oynağının tam protezlə dəyişdirilməsi | 75% |
| 20.3.5. | Sement istifadə olunmadan diz oynağının tam protezlə dəyişdirilməsi | 75% |
| 20.3.6. | Diz oynağın digər tam protezlə dəyişdirilməsi | 75% |
| 20.3.7. | Sement istifadə olunmaqla digər oynağın tam protezlə dəyişdirilməsi | 75% |
| 20.3.8. | Sement istifadə olunmadan digər oynağın tam protezlə dəyişdirilməsi | 75% |
| 20.3.9. | Digər oynağın digər tam protezlə dəyişdirilməsi | 75% |

| | | |
|---|---|---|
| 20.3.10. | Sement istifadə olunmaqla bud sümüyü başının protezlə dəyişdirilməsi | 75% |
| 20.3.11. | Sement istifadə olunmadan bud sümüyü başının protezlə dəyişdirilməsi | 75% |
| 20.3.12. | Bud sümüyü başının digər protezlə dəyişdirilməsi | 75% |
| 20.3.13. | Sement istifadə olunmaqla bazu sümük başının protezlə dəyişdirilməsi | 75% |
| 20.3.14. | Sement istifadə olunmadan bazu sümük başının protezlə dəyişdirilməsi | 75% |
| 20.3.15. | Bazu sümük başının digər protezlə dəyişdirilməsi | 75% |
| 20.3.16. | Sement istifadə olunmaqla digər sümük oynağının protezlə dəyişdirilməsi | 75% |
| 20.3.17. | Sement istifadə olunmadan digər sümük oynağının protezlə dəyişdirilməsi | 75% |
| 20.3.18. | Oynağın protezlə rekonstruksiya və yerinə salınması | 75% |
| 20.3.19. | Oynağın digər rekonstruksiya və yerinə salınması | 75% |
| 20.3.20. | Oynağın digər rekonstruksiyası | 75% |
| 20.3.21. | Oynağın travmatik dislokasiyasının ilkin açıq yerinə salınması | 50% |
| 20.3.22. | Travmanın plastinka ilə ilkin bərpası | 50% |
| **21.** | **Kombinə olunmuş əməliyyatlar** | |
| **21.1.** | **Bir neçə sistemləri əhatə edən əməliyyatlar** | |
| 21.1.1. | Yuxarı ətrafın replantasiyası | 100% |
| 21.1.2. | Aşağı ətrafın replantasiyası | 100% |
| 21.1.3. | Digər orqanın replantasiyası | 100% |
| 21.1.4. | Sistemarası transplantasiya | 100% |
| 21.1.5. | Hər hansı ətrafın protez implantasiyası | 75% |
| 21.1.6. | Əlin amputasiyası | 50% |
| 21.1.7. | Ayağın amputasiyası | 50% |
| 21.1.8. | Çanağın klirensi | 50% |

## 2. *Sığorta ödənişinin həcmi və həyata keçirilməsi qaydası*

2.1. Sığorta ödənişinin həcmi keçirilmiş cərrahiyyə əməliyyatın növündən asılı olaraq sığorta məbləği 1.1-ci bənddə nəzərdə tutulan cədvəldə müəyyən olunmuş faiz nisbətində müəyyən edilir və birdəfəlik ödəniş şəklində verilir.

2.2. Cərrahi əməliyyat növünün cədvəl ilə müəyyən edilməsi və ya əməliyyatın növü cədvəldə qeyd olunmadıqda ona uyğun sığorta ödənişinin həcminin müəyyən edilməsi sığortalı tərəfindən təqdim edilmiş sənədlərin və əməliyyatın ağırlığından asılı olaraq Sığortaçı tərəfindən aparılır.

2.3. Sığorta ödənişinin həyata keçirilməsi üçün aşağıdakı sənədlərin təqdim edilməsi tələb edilir:

2.3.1. Diaqnozlar göstərməklə xəstəlik tarixçəsindən çıxarış (müalicə stasionarda aparılıbsa);

2.3.2. Diaqnozlar göstərməklə ambulator kartdan çıxarış (müalicə ambulator aparılıbsa);

2.3.3. Diaqnozu və müalicənin tarixlərini göstərməklə tibb müəssisəsindən arayış (sığorta hadisəsi bədbəxt hadisə nəticəsində olubsa).

## 3. *Xüsusi istisnalar*

3.1. Sığorta müqaviləsi ilə başqa hal nəzərdə tutulmayıbsa, sığortalının cərrahi əməliyyat ilə nəticələnən sağlamlığının itirilməsi halından sığorta təminatı aşağıdakılar nəticəsində yaranarsa sığorta hadisəsi hesab edilmir:

3.1.1. Sığorta müqaviləsi bağlandığı günə qədər 3 il ərzində mövcud olan (və ya keçirilmiş), və sığorta hadisəsinin baş verməsinə təsiri olan xəstəlik və vəziyyətlər.
3.1.2. Kosmetik cərrahiyyə (bədbəxt hadisə nəticəsində yaranan kosmetik qusurlar istisna olmaqla);
3.1.3. Profilaktik tibbi müayinələr;
3.1.4. Kontrasepsiya və sterilizasiya əməliyyatları;
3.1.5. Sonsuzluqla əlaqədar müayinələr;
3.1.6. Hamiləliyin süni surətdə pozulması və bununla əlaqədar digər cərrahi əməliyyatlar (birbaşa tibbi göstəriş istisna olmaqla).

3.2. Hazırkı Əlavə şərtlərin 3.1.1-ci bəndində qeyd edilmiş müddətdə sığorta hadisəsinin baş verməsinə təsiri olan bir xəstəlik və ya vəziyyət aşkar olunubsa, sığorta təminatı başlandığı gündən 24 ay ərzində bu xəstəlik və vəziyyətlə əlaqəli sığorta hadisələrinə təminat verilmir.

Hazırkı Əlavə şərtlər Həyat sığortası qaydalarının (bundan sonra Qaydalar) bütün ümumi şərtlərini və istisnalarını nəzərə almaqla ona əlavəni təşkil edir və ayrılıqda istifadə edilə bilməz.

## *1. Sığorta təminatı*

1.1. Hazırkı əlavə şərtlərə əsasən bağlanmış sığorta müqaviləsi üzrə Sığortaçı sığortalıya Qaydaların istisnalar bəndində və hazırki əlavə şərtlərin xüsusi istisnalar bəndində nəzərdə tutulmuş hallar istisna olmaqla və sığorta müqaviləsində başqa hal nəzərdə tutulmamışdırsa, sığorta olunanın sığorta müddəti ərzində peşəkar surətdə idman tədbirlərində iştirakı zamanı baş vermiş bədbəxt hadisə nəticəsində aşağıdakı risklərdən sığorta təminatı verir:
1.1.1. ölüm;
1.1.2. əmək qabiliyyətinin itirilməsi.

## *2. Sığorta ödənişinin həcmi və həyata keçirilməsi qaydası*

2.1. Sığorta ödənişinin həcmi aşağıdakı qaydaya uyğun olaraq sığorta müqaviləsi ilə müəyyən edilir:

- bədbəxt hadisə nəticəsində ölüm halında - sığorta məbləğinin 100% həcmində;
- bədbəxt hadisə nəticəsində əmək qabiliyyətinin itirilməsi ilə əlaqədar - sığorta müqaviləsinin şərtlərinə əsasən, sığorta məbləğinin müəyyən hissəsi həcmində.

2.2. Sığorta müqaviləsinin qüvvədə olduğu müddət ərzində baş vermiş, əmək qabiliyyətinin itirilməsi ilə nəticələnən bədbəxt hadisə əmək qabiliyyətinin itirilməsini təsdiq edən müvafiq dövlət orqanın qərarı hadisənin baş verməsindən sonrakı bir il ərzində sığortaçıya təqdim edilərsə sığorta hadisəsi kimi tanınır.
2.3. Sığorta ödənişi almaq üçün aşağıdakılar Sığortaçıya təqdim edilməlidir:
2.3.1. sığorta olunan sığorta müddətində öldüyü halda - sığorta şəhadətnaməsi, müəyyən edilmiş formada ərizə, sığorta olunanın ölümü haqqında şəhadətnamənin təsdiq edilmiş surəti, sığorta hadisəsinin baş verməsinin səbəbi və şəraitini müəyyən etmək üçün lazım olan səlahiyyətli orqanın sənədi, sığorta olunanın peşəkar idman ilə məşğul olmasını təsdiqləyən sənəd;
2.3.2. sığorta olunan əmək qabiliyyətini itirdiyi halda – sığorta şəhadətnaməsi, müəyyən edilmiş formada ərizə, sığorta hadisəsinin baş verməsinin səbəbi və şəraitini müəyyən etmək üçün lazım olan səlahiyyətli orqanın sənədləri, sığorta olunanın peşəkar idman ilə məşqul olmasını təsdiqləyən sənəd, TSEK tərəfindən verilən əlilliyi təsdiq edən qərarın təsdiq edilmiş surəti və ya müvafiq tibb müəssisəsindən çıxarışlar.

## *3. Xüsusi istisnalar*

3.1. Əgər sığorta müqaviləsində başqa cür nəzərdə tutulmayıbsa, sığorta olunanın ölümü və ya əmək qabiliyyətinin itirilməsi aşağıda göstərilmiş hallar nəticəsində baş vermişdirsə sığorta hadisəsi sayılmır:

3.1.1. sığorta olunan tərəfindən yerli, beynəlxalq, xüsusi idman təşkilatları tərəfindən və ya idman şərtləri ilə qadağan edilmiş maddələrin qəbul edilməsi;
3.1.2. həkim tərəfindən təyin edilib-edilməməsindən asılı olmayaraq sığorta olunanın anabolik steroidlərin, kortikosteridlərin, stimullaşdırıcı maddələrin qəbul edilməsi. İdman təşkilatçıları tərəfindən icazə edilmiş maddələr barədə Sığortaçıya rəsmi məlumat verildiyi təqdirdə bu maddələr istisna edilə bilər;
3.1.3. sığorta olunanın idman tədbirlərinin qaydalarına görə, yaxud idman təşkilatı ilə bağlanmış müqaviləyə əsasən qadağan edilmiş fəaliyyəti;
3.1.4. sığorta olunanın dözümlülük testlərində (məs: crash test), yüksək sürətli avtomobil yarışlarında iştirakı (drifting, racing, safari və s.) və yaxud sərnişin qismində olması;
3.1.5. sığorta olunanın toz səpən, toxum səpən, tüstü ilə göydə yazan (skywriting), uçuş yarışları, kəşfiyyat və yaxud digər sərnişin daşıma məqsədlərindən başqa digər məqsədlər üçün istifadə edilən uçuş aparatlarında səyahət etməsi;
3.1.6. motosiklet, motorskuter, sualtı üzmə, dayvinq, dağa qalxma, speleologiya, deltaplanerizm, paraşütlə tullanma, ovçuluq, tullanma, raftinq.

## *4. Ödənişdən imtinanın əsasları*

4.1. Əgər sığorta müqaviləsində başqa hal nəzərdə tutulmayıbsa, Sığortaçı sığorta ödənişinin verilməsindən aşağıdakı hallarda imtina edir:
4.1.1. sığortalı, sığorta olunan və yaxud faydalanan şəxsin Sığortaçıya baş vermiş və sığorta hadisəsi sayıla bilən hadisə barədə mümkün olan ən qısa müddət ərzində məlumat vermədiyi halda;
4.1.2. baş vermiş sığorta hadisəsinin sığorta müqaviləsi bağlandığı anda sığorta olunanın artıq onda mövcüd olan xəstəliklərin (osteoartrit, artrit, əzələlərdə, sümüklərdə, oynaqlarda və bağlarda degenerativ proseslər, fiziki qüsürlar, İÇV, QİÇS) və travmaların nəticəsində baş verdiyi halda;
4.1.3. sığorta olunan Sığortaçıya bildirdiyi idman növlərindən başqa məşğul olduğu digər idman növləri barədə tam və doğru məlumat vermədiyi halda.